KURT VONNEGUT



Yaxud

**KURT VONNEQUT** tərəfindən
**Müəllifin çəkdiyi rəsmlər ilə**


ƏLVİDA,
QARA BAZAR
ERTƏSİ !

*“Böyük Depressiya” dövründə*
*mənə təsəlli vermiş*
*Fibi Hertinin xatirəsinə.*

***O, mənim yolumu bilir;***
***qoy məni sınasın, qızıl kimi çıxacağam.***
*(Bibliya, "Əyyub kitabı" 23:10)*

# ÇEMPİONLAR ÜÇÜN SƏHƏR YEMƏYİ

## Ön söz

"Çempionlar üçün səhər yeməyi" adı "Ceneral mills" səhmdar şirkətinin səhər yeməyi üçün nəzərdə tutulmuş buğda lopası qutusunun üstündəki patentləşdirilmiş ticarət nişanıdır. Bu adın kitabın adı kimi istifadə olunmasının "Ceneral mills" səhmdar kompaniyası ilə əlaqəsi yoxdur və onun reklamı üçün nəzərdə tutulmayıb, eyni zamanda, onun keyfiyyətli məhsulunun üzərinə kölgə salmır.

• • •

Bu kitabı həsr etdiyim Fibi Herti artıq çoxdan həyatda yoxdur, necə deyərlər dünyasını dəyişib. Mən onunla tanış olanda – "Böyük depressiya"nın sonlarında – o, İndianapolisdə yaşayan dul qadın idi. Mənim on altı yaşım var idi, onun isə qırxa yaxın.

Varlı idi, lakin bütün həyatı boyu hər gün işə gedir, durmadan işləyirdi. Keçmiş "İndianapolis tayms" qəzetində

“Aşiqlərə məsləhət” sütununu çox ağıl və hazırcavablıqla idarə edirdi.

Yaxşı, amma artıq mövcud olmayan qəzet…

Bundan başqa Fibi Herti “Vilyam Bloka və Kompaniya” univermağı üçün reklamlar yazırdı, bu univermaq isə mənim atamın layihəsi ilə tikilmiş binada hələ də fəaliyyət göstərir. Budur, Fibi Hertinin həsir şlyapalarının payızda endirimli satışı üçün yazdığı reklam: “Bu şlyapanı bu qiymətə alandan sonra ata da yedirtmək olar, qızılgüllərinizə gübrə də etmək olar”.

• • •

Fibi Herti məni yeniyetmə geyimlərinə reklam yazmaq üçün tutmuşdu. Təriflədiyim o paltarı özüm də geyinməli idim. Bu, işin bir hissəsi idi. Fibi Hertinin mənimlə tay-tuş olan iki oğlu ilə də dostlaşmışdım. Bütün günü onların evində olurdum.

Mənimlə də, oğulları ilə də, rəfiqələrimizlə də – onları tez-tez onun evinə dəvət edirdik – ifadələrindən utanmadan hər şey barədə açıq-saçıq danışırdı. Onunla birlikdə vaxt keçirmək əyləncəli idi. Onun yanında özümü sərbəst hiss edirdim. Bizə nəinki sekslə bağlı mövzularda deyil, üstəlik Amerika tarixi və müxtəlif məşhur qəhrəmanlar, sərvət bölgüsü, təhsil müəssisələri – bir sözlə, dünyadakı hər şey barədə təhqiredici tərzdə danışmağı öyrədirdi.

İndi isə mən dünyadakı hər şey barədə təhqiramiz deyimlərimlə pul qazanıram. Bu məsələdə bir az bacarıqsızam. Amma yenə də Fibi Hertinin təhqiramiz tonunu qorumağa çalışıram – onda bu inanılmaz dərəcədə gözəl və zərif alınırdı. Mənə elə gəlir ki, o bunu məndən daha asan edirdi, çünki "Böyük depressiya" dövrünün ab-havası əhvalı tamam fərqli idi. O vaxt Fibi Herti də amerikalıların çoxu kimi bir şeyə inanırdı: ölkədə firəvanlıq bərqərar olan kimi bütün xalq xoşbəxt, ədalətli, ağıllı olacaq.

Mən daha "firəvanlıq" sözünü heç eşitmirəm. Əvvəllər isə bu "cənnət" sözünün sinonimi idi, Fibi Herti isə inanırdı ki, onun bizə öyrətdiyi nəzakətsizlik Amerikanın cənnət guşəsinə çevrilməsinə kömək edəcək.

İndi hər şeyə qarşı bu cür təhqiramiz münasibət dəbdədir. Amma Amerika cənnətinə artıq heç kim inanmır. Hə, Fibi Herti üçün çox darıxıram.

• • •

İndi isə bu kitabda bütün insanların robot, mexanizm olduqlarından şübhələndiyimi dilə gətirməyim barədə. Nəzərə almaq lazımdır ki, mən uşaq olanda, sifilisin son mərhələsində olan və lokomotor ataksiyadan[1] əziyyət çəkən kişiləri İndianapolisin mərkəzində və sirk izdihamlarında tez-tez görmək olurdu. Bu insanlar yalnız mikros-

[1] Beynin xüsusi quruluşunun zədələnməsi nəticəsində gəzərkən tarazlığın, hərəkət koordinasiyasının pozulması – red.